***Zəfər KƏRİMOV*** *

# ŞİMALİ AZƏRBAYCAN MƏTBUATINDA MİLLİ-MƏDƏNİ VƏ MİLLİ-ƏRAZİ MUXTARİYYƏTİ MƏSƏLƏLƏRİNİN ƏKS OLUNMASI TARİXİNDƏN(1905-1917-Cİ İLLƏR)

**Açar sözlər:** Şimali Azərbaycan, mətbuat, milli-mədəni və milli-ərazi muxtariyyəti.

**Keywords:** Northern Azerbaijan, press, national-cultural and national-territorial autonomy.

**Ключевые словы:** Северный Азербайджан, пресса, национальной-культурной и национальной-территориальной автономии.

Ötən əsrin əvvəllərində Azərbaycan mətbuatında xalqın siyasi mədəniyyətinin formalaşması, milli-mədəni muxtariyyət və az sonra milli-ərazi muxtariyyəti məsələlərinin yer alması, mətbuat tariximizdə uzun illər boyu araşdırılmamış və obyektiv tədqiqatdan kənar qalmışdır. Məqalənin yazılmasında məqsəd, XX əsrin əvvəllərində milli mətbuatda mədəni muxtariyyət və ərazi muxtariyyəti məsələlərinin yer alması, onun siyasi əsası, eləcə də mətbuatın bu məsələləri kütlələrə çatdırmasında təbliğatı istiqamətlərinin müəyyən edilib araşdırılmasıdır. Mövzuya keçməzdən öncə o dövrdə çar Rusiyasının ucqar əyaləti olan Şimali Azərbaycanın ictimai-siyasi vəziyyətinə nəzər salmaq məqsədəuyğun olardı.

Rusiya imperiyasında 1905-1907-ci illər inqilabının təlatümü Şimali Azərbaycanın ictimai-siyasi həyatında yeni bir dövrün yaranmasına səbəb oldu. Bu dövr ölkədə sinfi mübarizənin daha da kəskinləşməsi və milli-azadlıq hərəkatının yeni mərhələyə qədəm qoyması ilə xarakterizə olunur.

1904-1905-ci illər rus-yapon müharibəsində Rusiyanın` acınacaqlı məğlubiyyəti bütün imperiyanın hər yerində azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. 1905-1907-ci illər inqilabı imperiyanın mövcudluğunu sarsıtdığından çar hökuməti xalqlara bir sıra hüquq və azadlıqlar verməyə məcbur olduğundan Şimali Azərbaycanda da böyük gərginlik yaratmış və mətbuatın fəaliyyətini xeyli canlandırmışdı.

* **Kərimov Zəfər** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun" Azərbaycanın tarixi demoqrafiyası" şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d. zafer.karimov@mail.ru

1905-1907-ci illər hadisələrinə qədər Azərbaycanda maarif, mədəniyyət, teatr və mətbuat kimi sahələr əsasən milli oyanış xarakteri daşımış, güclü siyasi bir fikir cərəyanına çevrilə bilməmişdi. Bu dövr xalqın milli azadlıq hərəkatında bir hazırlıq mərhələsi xarakteri daşısa da əslində, xalqı maarifləndirmək və onu cəhalət zülmündən xilas etmək və Azərbaycan dilini inkişaf etdirmək baxımından çox böyük əhəmiyyətə malik idi. 1905-ci ildən sonra isə Hacı Zeynalabdin Tağıyev(1838-1924) başda olmaqla Murtuza Muxtarov və Aşurbəyli qardaşları kimi milyonçu messenatların dəstəyi və himayəsi sayəsində milli mətbuat yeni bir mərhələyə qədəm qoymuş və Azərbaycanda azadlıq uğrunda mübarizəyə qatılmışdı. "Həyat" qəzetini və "Füyuzat" ədəbi-ictimai jurnalını H.Z.Tağıyev, "İrşad" qəzeti və "Şəlalə" ədəbi jurnalını İsa Aşurbəyli, "Tərəqqi" qəzetini isə Murtuza Muxtarov maliyyələşdirirdi.

XX əsrin əvvəllərində milli şüur və milli özünüdərk ideyalarının tanınmış nümayəndələri olan Əli bəy Hüseynzadəvə Əhməd bəy Ağaoğlu ilə bir sırada, digər publisistlər M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə və b. gərgin yaradıcılıq fəaliyyətinə başladılar.

Xalqla ünsiyyət yaratmaq və ona təsir etmək üçün mətbuatı ən yaxşı vasitə hesab edən milli ziyalılarımız xcəmiyyətin ictimai-siyasi və mədəni həyatında onun oynadığı rolu da lazımınca qiymətləndirirdilər. Onlar yaxşı başa düşürdülər ki, ölkənin və xalqın məruz qaldığı bəlaların səbəblərini aramaq, millətin qarşısında duran ən ümdə vəzifələri həll etmək üçün kütləvi təbliğat və təşviqat vasitəsi olan mətbuatın rolu əvəzolunmazdır. O dövrdə "Azərbaycanın qabaqcıl ziyalıları içərisində onlarla qəzet və jurnal redaktoru yetişmişdi. Onlardan M.Şahtaxtinskini ("Şərqi-Rus"), Ə.Ağayevi ("Həyat" 1905-1906, "İrşad", "Tərəqqi"), Ə.Hüseynzadəni ("Həyat", "Füyuzat" 1905-1907), C.Məmmədquluzadəni (1906-cı ildən, müəyyən fasilə ilə 1931-ci ilə qədər "Molla Nəsrəddin") H.Vəzirovu ("İrşad", "Tazə həyat", "İttifaq", "Səda", "Sədayi-vətən", "Sədayi-haqq", "Sədayi-Qafqaz", satirik jurnal "Məzəli" (1907-1916), M.Ə.Rəsulzadəni ("İrşad", "İqbal", "Yeni İqbal", "Açıq söz"(1915-1918), Ü.Hacıbəyovu ("Tərəqqi", "Həqiqət", "Yeni İqbal", "Azərbaycan" (1918-1920) göstərmək olar"[1, s. 233].

Hələ 1911-ci ildə tanınmış yazıçı-publisist Seyid Hüseyn (1887-1938) yazırdı: "Mətbuat – bir millətə, bir dövlətə nəf verər ki, o millətdə eşidən qulaq, dərk edən baş və yaxşını yamandan təmyiz verən əql və fikir olmuş olsun.. Mətbuat millətin dili məqamındadır" [2, № 1]. Seyid Hüseynin "Mətbuat millətin dil məqamındadır" deyimi mətbuatın rolundakı fəlsəfi-siyasi-ideoloji dualizm (həm millətə təsir vasitəsi, həm də millətin öz mövqeyini ortaya qoymaq vasitəsi) öz bariz ifadəsini tapmışdır. Mütərəqqi ziyalılarımız bu problemin belə dərinliklərinəenə bilmələri o zamankı ictimai-siyasi fikrin inkişaf səviyyəsinə də dəlalət edir.

Mətbuat haqqında o dövrün görkəmli naşir və publisisti Ömər Faiq Nemanzadənin (1872-1938) fikirləri də maraqlıdır:

"Millətlərin dərəceyi-təriqqiləri məhz bir şeylə ölçülür ki, o da ancaq mətbuatdır... Mətbuatı olmayan millətin mövcudiyyəti, istiqlalı qətiyyən yoxdur... Dünyada davamlı heç bir hökuməti məşrutə yoxdur ki, onu vücudə gətirən səbəbi-yeganə mətbuat olmasın, heç nəticəpəziz inqilab yoxdur ki, onun müqəddiməsi, onun validi mətbuat olmasın.

Mətbuat, inqilab, hürriyyət, ədalət bunların cümləsi bir-birinin edadına möhtac yoldaşlardır. Bu səbəbdədir ki, mətbuatsız səmərəbəxş inqilab, inqilabsız hürriyyəti-mətbuat ola bilməz... Bir inqilab ki, bir çox illər mətbuatın qucağında tərbiyə olub, onun təsiri ilə əmələ gəlməyibdir, ciddi səmərə verə bilməyəcəkdir. İştə mətbuatın bu qüvvət və təsirini bildikləri üçündür ki, müstəbid padşahların cümləsi nə qədər gücləri varsa ciddi və haqpərəst mətbuatın məhvinə sərf etmişlərdir və etməkdədirlər" [3, №79]. Göründüyü kimi, Ömər Faiq mətbuatı ictimai tərəqqinin əsas təkanverici qüvvələrindən biri olan inqilabi təbəddülatların başlıca açarlarından sayır, hesab edirdi ki, heç bir mütərəqqi inqilabi hökumət mütərəqqi mətbuatsız mövcud ola bilməz. Ö.F.Nemanzadə bir çox məqamlarda çağdaş demokratiya dəyərləri ilə səsləşən fikirlərindən birinə görə, "müstəbid padşahların cümləsi (hamısı – Z.K.) nə qədər ki, gücləri varsa ciddi və haqpərəst mətbuatın məhvinə sərf etmişdilər vəetməkdədirlər". Beləliklə də, bu görkəmli ictimai xadim, ədalətli sosial-ictimai-siyasi mühitli cəmiyyətin varlığının ən mühüm atributlarından biri kimi "ciddi və haqpərəst" mətbuatın rolunu xüsusi qabardır.

XX əsrin əvvəllərində Şimali Azərbaycandasiyasi partiya, təşkilat və cəmiyyətlərin milli azadlıq hərəkatındakı fəaliyyətini istiqamətləndirən və bu işə dəstək verən vasitələrdən biri də mətbuat idi. "Kaspi" (1881-1919), "Şərqi-Rus" (1903-1905), "Həyat" (1905-1906), "Molla Nəsrəddin" (1906-1931), "Füyuzat" (1906-1907), "Tərəqqi" (1908-1909), "İqbal" (1912-

1915) kimi qəzet və jurnallar, "Hümmət" (1904), "Qeyrət" (1905), "Difai" (1906), "Müdafiə" (1907), "Müsavat" (1911) və s. partiyaların, "Nəşri-maarif" (1908-1914, 1915), "Nicat" (1914-1915), "Şəfa" (1914) və b. cəmiyyət və təşkilatların fəaliyyətinə bilvasitə istiqamət verir və onların cəmiyyətdə apardığı ideya məfkurə azadlığı siyasətini kütlələrə çatdıraraq, təbliğ etməyə çalışırdılar. Bir sıra mətbuat orqanları isə konkret olaraq hər hansı bir partiya və təşkilata mənsub olub "İrşad" (1905-1908), "Açıq söz" (1915-1918), onun rəsmi orqanı kimi fəaliyyət göstərirdi.

Ötən əsrin əvvəllərində Şimali Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarını siyasi istiqamətinə görə üç əsas qrupa ayırmaq olar.

Birinci qrupa milli mənafei dəstəkləyən və Azərbaycanın azadlığının tərəfdarı kimi çıxış edən mətbuat orqanları daxil idi ki, yuxarıda onların adlarını əsasən sadaladıq.

İkinci qrupa yazılarında əsasən bitərəf mövqe tutan və ölkədəki sosial, iqtisadi və siyasi problemləri islahatlar yolu ilə həll etməyə çalışan liberalyönlü mətbuat aididi. Bu mətbuat orqanlarına "İttifaq" (1908-1909), "Hilal" (1910-1911), "Sədayi-vətən" (1911-1912), "Həqiqəti-əfkar" (1911-1912), "Bakı həyatı" (1912), "İqdam" (1914-1915), "Sovqat" və s. qəzetlər, "Rəhbər" (1906-1907), "Mirat" (1910), "Rus-İran dostu" (1911), "Şeypur" (1918-1919), "Zəhmət həyatı" (1919) və b. jurnallar daxil idi.

Üçüncü qrupa isə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının mövqeyini müdafiə edən, əsasən bolşevikyönlü mətbuat orqanları aid idi ki, onlar ölkədəki köklü dəyişiklikləri daha radikal formada, inqilabi yolla həll etməyə çalışırdılar. Belə mətbuat orqanlarına "Hümmət" (1904-1905), "Dəvət-Qoç" (1906), "Bakinski raboçi", (1906-1908, 1917-1918), "Təkamül" (1906-1907), "Yoldaş" (1907), "Bakinskiy proletari" (1907-1909), "Haqq" (1919), "Füqəra sədası" (1919), "Gənc işçi" (1919), "Molot" (1919), "Nabat" (1919), "Bednota" (1919), "Kommunist" (1919-1992) və s. qəzetlər, "Volna" (1909), "Djigit" (1907-1913), "Biç" (1913-1916), "El həyatı" (1918) kimi jurnallar aid idi.

Birinci qrupa aid, milli mənafei müdafiə edən və Azərbaycan xalqının azadlığa nail olması üçün yorulmadan mübarizə aparan demokratik mətbuat orqanları, milli ruhlu partiya və təşkilatlarda birləşərək öz fəaliyyət dairələrini günü-gündən genişləndirirdi. Belə mətbuat orqanlarından biri "Difai" partiyasının orqanı olan "İrşad" qəzeti idi.





Gündəlik, siyasi-ictimai, iqtisadi, ədəbi qəzet olan "İrşad"ın redaktoru Əhməd bəy Ağaoğlu olsa da müxtəlif vaxtlarda qəzetə Haşımbəy Vəzirov (1907, №1-15) və Məmməd Əmin Rəsulzadədə (1908, № 46-57) redaktorluq etmişdir [4, s.80].Qəzetin məsul katibi və redaktor müaviniisə Üzeyir Hacıbəyli idi. Digər mətbuat orqanları kimi "İrşad" qəzeti də uzun illər Sovetlər birliyi dövründə obyektiv və hərtərəfli şəkildə araşdırılmamış və qəzetə burjua damğası vurularaq zərərli bir orqan kimi yanaşılmışdır. Lakin "İrşad" qəzeti ilə əməkdaşlıq edən geniş bir ziyalı dəstənin M.Ə.Sabir, F.Köçərli, Ü.Hacıbəyli (Ü, Ü.H., Filankəs, Behmankəs, Musiqar, Gendən baxan və s.), Ə.Qəmküsar, Ö.F.Nemanzadə (Ümid, Ümidvar, Bir Karslı, Bir İranlı, Bir cavan), S.M.Əfəndiyev (S.M.,Xeyirxah və s.), N.Nərimanov (Nər, N.N., Arıbəy və s.), Z.Zeynalov (Vəkil Zeynalov), B.Şahtaxtinski, A.Şaiq, M.M.Axundov ( Hatif ), Əbdülrəhim Talıbov ( Əbdülrəhim Təbrizi), H.Cavid, H.İ.Qasımov, Ə.Nəzmi, Qafur Rəşad Mirzəzadə (Ağaş – Əbdül Qafur, Faiq Əbdülqafur), A.Sur Məmmədzadə (A.S.), A.Səhhət, N.Vəzirov (Dərviş), Hacı Məcidzadə Badkubeyi (Azər), İ.T.Musayev, Cavanşir Əbdülsəmədbəy Zəngilani (Aşiq), M.S.Axundov, S.M.Qənizadə (S.M.Q., Sofi, Şeyda), H.Minasazov (Səyyar), Səid Səlmasi, Mirzə Musa Əskərov (Səhban), Seyid Musəvi Məsimov (Seyid Əbülhəsən Musəvi), M.H.Hacınski (Avara, Ürfizadə Sədrəddin), Abbas Təbrizi (Zəlil), Rəşidbəy İsmayılov (Məşriqi), Musa Quliyev, M.Ə.Sidqi (Zadə), Abasağa Qayıbov, Kərimbəy Mehmandarov və başqalarının yaradıcılığı onu deməyə əsas verir ki, qəzet, həqiqətən o dövrdə Şimali Azərbaycanda baş verən bütün hadisələrə, o cümlədən milli azadlıq hərəkatına böyük dəstək vermiş və cəmiyyətin sosial-siyasi və iqtisadi problemlərinin həllinə çalışmışdır.

"İrşad" qəzeti milli müstəqilliyin mühüm atributlarından olan ana dilinin genişlənməsi və inkişafı məsələlərinə və ədəbi tənqidə daim diqqət verir və görkəmli ziyalıların bu məsələ ilə bağlı fikir və düşüncələrini ictimaiyyətə çatdırırdı. İstedadlı tənqidçi və publisist Abdulla Surun (1883-1912) ədəbi dil məsələsindəki fikirlərini təqdir edən qəzet, müəllifin ədəbi dilin "ərəb və fars nüfuzu altında" [5, № 264] qalmasını və "başqalarının fikri ilə düşünmək" [5, № 264] istəyənləri tənqid etdiyi kimi, "İstanbulun son ədəbiyyatı – cədidəsini vahid qiyas kimi ədd edənləri də" [5, № 264] rədd edirdi.

Milli ədəbiyyat və mətbuatın inkişafında ədəbi tənqidi və fikir mübadiləsini əsas amil sayan A.Sur bildirirdi ki, iqtidar sahibi mühərrirlər "bizim səhvlərimizi üzümüzə çırpsınlar; bizi intiqad etsinlər ki, ortaya həqiqət çıxsın, millətimiz istifadə etsin. Bu təriq ilə intiqada dəxi alışalım" [6, 216].

1905-1907-ci illər inqilabından sonra Rusiya imperiysının bir çox yerlərində olduğukimi, Cənubi Qafqazda da milli azadlıq mübarizəsi xeyli güclənmiş və xalqların siyasi azadlıqlar əldə etmək istəyi artmışdır. Qafqaz xalqlarının muxtariyyət idarəçiliyinə olan ehtiyacı məsələsini ilk dəfə milli mətbuatda Bakı kadetlərinin nümayəndələri səsləndirmişdi.

Bakı kadetlərini azərbaycanlılardan İ.Hacınski, İ.Hacıyev və K.Səfərəliyev təmsil edirdi. Onların milli məsələ haqqında mükalimələri qəzet səhifələrində də öz əksini tapırdı. Partiyanın sağ qanadını ifadə edən Qrivsovun "Sosial-demokratiya və muxtariyyət ucqarı" [7] məqaləsi "Baku" qəzetində dərc olunmuşdu. Sosial-demokratların xalqlarin müqəddəratlarını müəyyənetmə hüququnun uğursuzluğunu və onun taktiki cəhətdən qəbul olunmasının heç də düzgün olmadığını göstərən müəllif, Qafqazın idarə olunmasının iki mümkün variantından söz açır. O, birinci variantda göstərir ki, Rusiyanın Qafqazda geniş monarxiyalı özünüidarəetmə konstitusiyası tətbiq olunmalıdır. Onun müstəqil qanunvericilik hüququ olmasa da belə, ümumi parlamentdə müəyyən hüquqa malik nümayəndəliyi olmalıdır ki, bü-tün qanunların qəbulunda iştirak edə bilsin.

Müəllif ikinci variantda Qafqazın Şimali Amerika İttifaqı və ya İsveçrə kimi nə isə ayrıca bir ştat hüququnu [8,s. 131] təmsil etməsini, geniş federasiyanın bərabərhüquqlu üzvü kimi qanunvericilik təşəbbüsü səlahiyyətlərinə malik, özünün parlamenti, pul vahidi, gömrüyü və s. olmasını istəyirdi.

Görkəmli publisist Yuli Turski Bakı kadetlərinə öz səhifələrini həvəslə açan "Baku" qəzetində Qafqaz xalqlarının muxtariyyət əldə etmək arzusu haqda yazırdı: "Qafqazlıların tələblərindən savayı, Rusiya üçün də ümumi olanı və heç də az əhəmiyyət daşımayanı – Qafqazın Muxtariyyətidir. Qafqaz xalqlarının özlərinin muxtariyyət idarəçiliyinə ehtiyyacları vardır..." [9]. Ümumi Qafqaz üçün siyasi yenidənqurma seçkili yerli idarə hüququndan məhrumetmə ilə ayrılmaz surətdə bağlı idi. Bu qəbildən olan partiyaların mövqelərinin işıqlandırılmasında "Baku" qəzeti xüsusi fəallıq göstərirdi.





Ötən əsrin əvvəllərində Şimali Azərbaycanda milli-azadlıq hərəkatının güclənməsinə və xalqın sosial-siyasi hüquqlarının müdafiəsinə çalışan mətbuat orqanlarındanbiri də "Kaspi" qəzeti (1881-1919) idi. "Kaspi" qəzeti də siyasi-ictimai mühitin kütlələr içərisində təbliğatın aparılmasında, partiyalararası mükalimələrin şərhində mühüm yer tuturdu.

Ədəbi, ictimai-siyasi qəzet olan "Kaspi" əvvəllər həftədə iki dəfə çap olunurdu. 1881-ci ilin iyunundan qəzet həftədə üç dəfə, 1884-cü ildən isə gündəlik nəşr olunmağa başlamışdır. Qəzetə müxtəlif vaxtlarda azərbaycanlılardan Ə.Topçubaşov, Q.Məlikov, Ə.Hüseynzadə redaktorluq etmiş, H.Z.Tağıyev isə naşiri olmuşdur [1, s. 155].

Görkəmli ictimai xadim, hüquqşünas və publisist Əlimərdanbəy Topçubaşov (1865-1934) "Kaspi" qəzetindəki məqaləsində Azərbaycan ictimaiyyətinin bütün zümrələrinə ümid, inam ifadə edərək bildirirdi ki, Qafqazın idarə olunması əsaslı şəkildə dəyişməli və hər şeydən əvvəl "Qafqaz diyarı sakinlərinin yaşayış hüququ bütün Rusiya əhalisi ilə bərabər olmalıdır" [10].

"Kaspi"qəzeti səhifələrində Şimali Azərbaycan ictimai fikrinin bütün istiqa-mətləri, o cümlədən müsəlmanların hüquqlarının müdafiəsi məsələsi kifayət qədər aydın və cəsarətli çıxışlarla öz əksini tapırdı. Onların bir çoxu demokratik konsti-tusiyaçı partiyasının proqramına yaxın olan müsəlmanların dünyagörüşünü ifadə etməyə və ehtiyaclarını qabartmağa çalışırdı [1,s. 140]. Ə.Topçubaşov özünün "Partiyalar" adlı məqaləsində bütün partiya və hərəkatların yenidən təşkil olunaraq "vətəndaş və siyasi azadlıq partiyası" ətrafında birləşməsinə çağırır və parlamentarizmi 17 oktyabr Manifestinin əsasında həyata keçirilməsini məqsədəuyğun sayırdı [10]. Liberal yönlü konstitusiyaçı demokratlar kadetpartiyasının proqramını ətraflı ifadə edən Topçubaşov, xüsusilə yerli muxtariyyətin təqdim olunması bəndinə diqqət ayırır və duma iclaslarında nümayəndələrin iştirak etmək hüququnun həyata keçirilməsinə çalışaraq, Rusiyada yenidənqurmanın təməlini federativ əsaslarda görürdü [10].

Kadetlərin əsas milli proqram tələbləri Rusiya imperiyasının tərkibində yaşayan xalqların mədəni özünüidarəsinin təmin olunması və ya milli-mədəni muxtariyyətin əldə olunmasından ibarət idi. Bu tələb onunla bağlı idi ki, hər bir xalq, cəmiyyətdə, ictimai həyatda və istənilən sahədə ana di-

lindən istifadə etmək hüquüuna malik olsun, ana dilində təhsil müəssisələri yaratsın və öz mədəniyyət və incəsənətləriniinkişaf etdirə bilsinlər.

XX əsr Azərbaycan ictimai-siyasi fikir tarixində əhəmiyyətli rol oynamış "Müsavat" partiyası 1911-ci ilin oktyabrında "Hümmət" partiyasından ayrılmış millətçi ziyalılar tərəfindən yaradılmışdı. 1904-cü ildən sonra "Hümmət" partiyasında olduğu kimi bir çox inqilaba meylli cəmiyyətlərdə də, təcrübə qazanmış gənc vətənpərvər ziyalılar Balkan müharibəsi (1912-1913) ərəfəsində güclənən rus şovinizminə qarşı çıxır və Osmanlı dövlətinə rəğbət nümayiş etdirərək gizli siyasi cəmiyyət yaratdılar.Bu partiya Rusiyada yaşayan türkləri, hər vasitə ilə ruslarla birgə insan haqlarına sahib olmağa səsləyir və türk-islam dünyasının azadlığa qovuşmasına çalışırdı. Partiyanın idealı millətlər arasında hüquq bərabərliyi və qarşılıqlı anlaşmaya nail olmaq idi.Bunun üçün partiyaya "Müsavat" (bərabərlik) adı verilmişdi [11,s. 24].

"Müsavat"ın ilk yaradıcıları arasında, M.Ə.Rəsulzadə ilə birlikdə "Hümmət" partiyasında fəaliyyət göstərmiş Məmmədəli Rəsulzadə, Abbasqulu Kazımzadə, Kər bəlayi Vəli Mikayılzadə, Qulamrza Şərifzadə kimi ziyalılarvardı.

Bu dövrdə Şimali Azərbaycanda nəşr olunan qəzet və jurnallar kəmiyyət və keyfiyyət baxımından da bir-birindən xeyli dərəcədə fərqlənirdi. Yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif siyasi partiya, təşkilat və cəmiyyətləri təmsil edən və onların ideya daşıyıcılarına çevrilən bu mətbu orqanlar, Azərbaycanda mövcud sosial-siyasi həyatı və cəmiyyətdə baş verən prosesləri özünəməxsus formada ictimaiyyətə çatdırırdılar.

Obyektiv mövqeyi və demokratik ənənələrə sadiqliyi ilə o dövrdə seçilən qəzet-lərdən biri də "Yeni İqbal" (1915-1917) qəzeti idi.

Qəzetin ilk nömrəsi 1915-ci il aprelin 28-də Bakıda çap olunmuşdu. "Yeni İqbal"ın sərlövhəsi altında "gündəlik ictimai, iqtisadi, siyasi türk qəzetəsi" olduğu göstərilirdi. Müxtəlif illərdə onun naşiri Z.Abdulbəyzadə, redaktoru Ü.Hacıbəyli, müdiri Əbdülrəhman Məşhədi Dadaş oğlu, baş mühərriri M.Ə.Rəsulzadə (19-cu saydan sonra O.Orucov) olmuşdur. "Yeni İqbal" qəzeti Orucov qardaşları mətbə-əsində çap edilirdi.

Müxtəlif dövrlərdə bir sıra yazıçılar, ziyalılar, o cümlədən Ü.Hacıbəyli, N.Nərimanov, Hacı İbrahim Qasımov, Ə.Müznib, Şəfiqə Əfəndizadə, S.Hüseyn (S.H. Kazımzoğlu), Ə.Məhzun, H.S.Səyyah Qasımzadə, M.S.Ordubadi, H.Zeynallı, Q.Cəfərov, Rza Drablinski, Fətəli İsmixanov (Fətəli), F.Ağayev, İ.Şeyxzamanov, Ə.Əzimzadə, R.Druşeviç, Cəfər Bünyadzadə, C.Dağıstanlı, Hüseyn Tələt, Ə.Ələskərov, Əli Səbri Qasımov, F.Köçərli, Mahmud Nədim Qaragözov, Əliməmməd Mustafayev (Müəllim – Mustafazadə), S.İbrahimov, M.Vəzirov, Mir İbrahimNəvvazadə (Ağamirzadə, Davud, Ağdam – Davud), M.Bədəlov, Rza Qaraşarov, Mir Həsən Axundzadə, Cəmobəy Cəbrayılbəyli (Cəmobəy), Ö.F.Nemanzadə, M.M.Axundzadə (Səs), X.İbrahimov, H.Cavid, Ə.Cavad, A.Şaiq, M.Ə.Sidqi ( Bekar) və b. "Yeni İqbal" qəzeti ilə əməkdaşlıq etmişdir. "Yeni İqbal" qəzeti əvvəllər əsasən milli burjuazyanın liberal qanadı mövqeyini əks etdirirdi. Qəzetdə ölkədə baş verən ictimai-siyasi hadisələrlə bağlı, eləcə də ədəbi proseslərlə əlaqədar çoxlu bədii, publisistik yazılar dərc olunmuşdur. "Yeni İqbal" qəzeti sonralar öz səhifələrində millətçilik ideyalarının təbliğini daha da genişləndirdi. Bir qədər sonra isə o, "Açıq söz" qəzeti ilə birləşdi. "Yeni İqbal" qəzeti Birinci Dünya müharibəsi dövrünün hadisələrini, xüsusən də Qafqazda və Yaxın Şərqdə gedən mürəkkəb ictimai-siyasi proseslərin öyrənilməsində mühüm bir mənbədir.

O dövrdə Azərbaycan türklərinin ehtiyaclarından və dərdlərindən ən çox yazan qəzetlərdən biri də "Açıq söz" qəzeti (1915-1918) idi.

M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində Dövlət Dumasındakı müsəlmanlardan ibarət deputat qrupunun fəaliyyəti ilə bağlı yazırdı:

"...Müsəlmanlar nə istəyirlər? İstəyirlər ki, müsəlman olduqlarına görə onları tapdalamasınlar. Onları müsəlman olduqlarına görə bürokratçılığa dözməyə məcbur etməsinlər. Onların dili, dini hər cür təzyiqdən azad olsun.

Məgər müsəlmanların bu istəklərinin təmin edilməsi vətənin müdafiəsində dayanan və bundan sonra da hər vasitə ilə vətəni qoruyacaq vətəndaşların patriotluğuna mane olurmu?" [12,s. 56].

M.Ə.Rəsulzadə öz məqalələrində Dövlət Duması yolu ilə xalqa müəyyən hüquqlar verilməsinin mümkünlüyünü göstərirdi. Həmçinin "Açıq söz" qəzeti də Azərbaycan cəmiyyətinin yaralarına toxunur, sağlamlıq, xilas olmaq yollarını axtarıb arayırdı. O əzilən müsəlman türkünün ağrısını ifadə etməyə çalışırdı. Qəzet əzab çəkən, əzilən Azərbaycan türkünün səsini batmağa qoymur, ucaldırdı.

"Açıq söz" qəzeti hürriyyət və millətçilik prinsiplərini, eləcə də türkçülük ruhunu çox zaman M.Ə.Rəsulzadənin məqalələri vasitəsilə geniş

xalq kütlələrinə çatdırır, bu hissləri onlara aşılayırdı. Artıq sarsılmaqda olan və çökməsinə cəmi bir il qalmış imperiya əsarətinə qarşı, "Açıq söz" qəzeti ciddi mübarizə aparırdı.

Abdulla Vahab Yurdsevərin fikrincə "Emin bəyin "Açıq söz"ü Azərbaycanda çıxan digər qəzetlərdən çox fərqli idi. Digər qəzetlərimiz ümumiyyətlə dini və bəzən dəmilli vəhdət fikri üzərinə məhəlli bir intibah hərəkəti vücuda gətirməyə çalışarkən, "Açıq söz" elmi bir tərzdə işlənmiş modern bir türkçülük cərəyanını təmsil ediyor və gərək siyasi, gərəksə ictimai sahələrdə açıq və mütəhhəs bir müqabilə proqramını irəli sürürdü.

Sırf gənc qələmləri yetişdirməkdən ötrü, Emin bəy "Açıq söz"də bir "açıq sütun" yeri ayırmışdı. Bu "açıq sütun" hal-hazırda məmləkət daxilində və xaricində Azərbaycan davasını sədaqətlə müdafiə edən bir çox mühərrirlərə məktəb vəzifəsini görmüşdür" [12,s. 57].

1917-ci il mayın 1-dən 11-nə qədər Moskvada keçirilən Ümumrusiya Müsəlmanları qurultayında iştirak edən azərbaycanlı nümayəndələrdən M.Ə.Rəsulzadə, Ə.Topçubaşov və b. öz çıxışlarında Cənubi Qafqaz xalqlarına milli-ərazi muxtariyyəti verilməsi təklifini irəli sürdülər. Ərazi muxtariyyəti blokunun əsas məruzəçisi M.Ə.Rəsulzadə qurultayda çıxış edərək demişdi: "Rusiya xalq cümhuriyyəti üsulu ilə idarə edilməlidir... Mən, ədəmi-mərkəziyyəti muxtariyyətlərdən təşəkkül edən bir federasiya şəklində təsəvvür edirəm. Bu muxtariyyətləri milli-məhəlli prinsipiiçində faydalı bilirəm" [13].

Ə.Topçubaşov qurultayda bu məsələni daha ətraflı şərh edərək xalqın özü tərəfindən idarə olunacaq demokratik-federal bir cümhuriyyətin yaradılmasını istədiklərini bildirdi: "hər şeydən əvvəl, bir xalq cümhuriyyəti (federal cümhuriyyət) istəyirik, bu bizim əsas diləyimizdir. Xalq cümhuriyyəti demək, bütün hakimiyyətin tamamilə xalqın, demokrasinin öz əlində bulunan idarə deməkdir. Buna digər bir sözlə, "xalq hakimiyyəti"də deyilir" [13].

Qurultayda irəli sürülən məsələlər Şimali Azərbaycanın bir çox demokratik mətbuat orqanlarında geniş şəkildə əks olunur və onun əsl mahiyyəti ictimaiyyətə çatdırılırdı. Milli mətbuatın ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan cəmiyyəti ötən əsrin əvvəllərində beynəlxalq insan hüquq və azadlıqları, dövlət idarəçiliyi və s. məsələlərlə bağlı faydalı məlumatlar əldə etmiş oldu.





Tədqiq etdiyimiz mövzuya yekun vuraraq aşağıdakı nəticəyə gəlmək mümkündür:

Birincisi, milli mətbuat, o cümlədən "Kaspi", "Həyat", "İrşad", "Molla Nəsrəddin", "İqbal", "Füyuzat", "Yeni İqbal", "Dirilik", "Açıq söz" və s. qəzet və jurnallar XX əsrin əvvəllərində Şimali Azərbaycanda daim xalqın ictimai-siyasi şüurunun formalaşmasına çalışır və onun siyasi mədəniyyətinin yüksəlməsi üçün müxtəlif yollar axtarıb-arayırdı.

İkincisi, 1905-1907-ci illər inqilabından sonra ölkədə genişlənən milli-azadlıq hərəkatı artıq Şimali Azərbaycanda da hiss olunmağa başlayır və milli mətbuatda mədəni muxtariyyət, ərazi muxtariyyəti kimi məsələlər yer alırdı. Azərbaycanın milli ruhlu ziyalıları M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Y.V.Çəmənzəminli və b. xalqın azad və müstəqil yaşamasıüçün milli-ərazi muxtariyyəti əldə etməyin vacibliyini bildirir və buna nail olmağın başlıca yolunu ziyalıların vahid məqsəd ətrafında birləşərək hökumətə və Dövlət Dumasına israrla müraciət etməsində görürdülər.

Üçüncüsü, Birinci Dünya müharibəsi ərəfəsində Şimali Azərbaycanda yaranan ilk nüfuzlu milli partiya olan "Müsavat"ın ətrafında birləşən demokratik ruhlu ziyalılar artıq keyfiyyətcə daha mübariz, gündəlik çap olunan "Açıq söz" qəzetini nəşr etməklə milli azadlıq mübarizəsini daha da gücləndirib, Azərbaycanın müstəqil dövlətə çevrilməsi və xalqın tam istiqlala qovuşması ideyasının əsasını qoymuş oldular. Nəticədə, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik türk dövləti, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə mütərəqqi fikirli ziyalıların uzun illər apardığı istiqlal mübarizəsi uğurla başa çatmış oldu.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, 7 cilddə. 5-ci cild. 672 s.
2. S.Hüseyn. Mətbuatın əhəmiyyəti və onun nəticəsi. "Şəhabi-saqib" jurnalı, 22 yanvar 1911. № 1.
3. Nemanzadə Ö.F. Mətbuat. "İrşad" qəzeti, 3 iyul 1908.№ 79.
4. Axundov Nazim. Azərbaycan dövri mətbuatı. 1832-1920. Biblioqrafiya. Bakı 1987. 120 s.
5. "İrşad"qəzeti, Nəfəxat, 15 noyabr 1906.№ 264.
6. İqtisad elmindən, "İrşad"qəzeti, 14 sentyabr 1906. № 216.
7. "Baku" qəzeti, 18 mart,1906.

8. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку, 1997. 336 с.
9. "Baku" qəzeti, 17 noyabr 1906.
10. "Kaspi" qəzeti, 3 mart1905.
11. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı 1990.116 s.
12. Yaqublu N. Məmməd Əmin Rəsulzadə.Bakı 1991.308 s.
13. Quliyev Cəmil. XIX-XX əsrlər tarixindən... "Respublika" qəzeti, 20 yanvar 1997.

## QUESTIONS FROM THE HISTORY OF NATIONAL-CULTURAL AND NATIONAL-TERRITORIAL AUTONOMY IN THE PRESS OF NORTHERN AZERBAIJAN (1905-1917 YEARS)
## SUMMARY

The beginning of the revolutionary activity in Russia in 1905-1907 initiated a new period in the sosial-politikal life of North Azerbaijan. Further sharpening of the class struggle and national-liberation movement caused the national cultural and territorial problem of autonomy.

Advanced thinkers of the time, such as A.Agaoglu, A.Topchibashev, M.E.Rasulzadeh, Yu.Chemenzeminli and many others wrote for the newspapers and ma-gazines "Kaspiy", "Khayat", "Molla Nasreddin", "Fiyuzat", "Tereggy", "Dirilik", "Igbal", "Achig soz" about the importance for the free and independent life of the people to gain national cultural and territorial autonomy, showing the ways to achi-eve it.

## ИЗ ИСТОРИИ ОТРАЖЕНИЯ В ПЕРИОДИЧЕСКОЙ ПЕЧАТИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА ВОПРОСОВ НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЙ И НАЦИОНАЛЬНО-ТЕРРИТОРИАЛЬНОЙ АВТОНОМИИ (1905-1917-Е ГОДЫ)
## РЕЗЮМЕ

С началом революционных событий в Российской империи в 1905-1907 гг. начинается новый в развитии демократической печати Северного Азербайджана.

Дальнейшее обострение в стране классовой борьбы и подъём национально освободительного движения послужили причиной активного обсуждения вопросов о национально-культурной и национально-территориальной автономии.

На страницах таких газет и журналов, как «Каспий», «Хаят», «Молла Насредин», «Фиюзат», «Терегги», «Дирилик», «Игбал», «Ачыг сёз» представители передовой интеллигенции А.Агаоглу, А.Топчибашев, М.Э.Расулзаде, Ю.Чеменземинли и многие другие писали о том, что для свободной и независимой жизни народа оченъ важно обретение национально-культурной и национально-территориальной автономий, указывали на пути достижения этой цели.